## Azərbaycana səfər statistikası: Gürcüstan vətəndaşları ruslardan qabaqdadır

Fevral ayında Azərbaycanı 172.7 min nəfər xarici vətəndaş ziyarət edib; bu, keçən ilin eyni dövrünə nisbətdə 3.9% və ya 6.5 min nəfər artım deməkdir. Bu ay Gürcüstan ilk dəfə olaraq 52 min nəfər səyahətçi sayına görə bazarda lider mövqeyinə yiyələnmiş oldu: ötən ilin müvafiq dövrü ilə müqayisədə fevral ayında Gürcüstandan gələnlərin sayında 25.6% və ya 10.8 min artım müşahidə olunub.

Gürcüstan ilk iki ayın nəticələrinə görə də ən əsas bazar mövqeyinə yiyələnib: gələnlərin sayı 20.8 min və ya 23.7% artaraq 108 minə çatıb. Ümumiyyətlə, ölkəyə gələnlərin 29.8%-i Gürcüstandan gələnlərin payına düşür. Qeyd etmək lazımdır ki, Gürcüstandan gələnlərin sayında artım keçən ilin payızından bu yana müşahidə olunmaqdadır: ötən ilin oktyabr ayından başlayaraq illik artım 23.7% təşkil edib.

Cənubi və Orta Asiya digər sürətlə inkişaf edən bazarlardır. 2019-cu ilin yanvar və fevral aylarında Cənubi və Mərkəzi Asiyadan Azərbaycana 70.2% və 29.2% daha çox qonaq gəlib. Cənubi Asiya səyahətçilərinin əksəriyyətini Hindistan (6.1 min) və Pakistan (5.5 min), Orta Asiya səyahətçilərinin əksəriyyətini isə Türkmənistan (5.1 min) və Qazaxıstan (4.5 min) vətəndaşları təşkil edir. Fevral ayında ötən ilin eyni dövrünə nisbətdə səyahət edənlərin artımı Cənubi və Mərkəzi Asiya regionları üçün müvafiq olaraq 3 min və 1.2 min nəfər təşkil edib ki, bu da yekun olaraq 6.7 min və 6.3 minə bərabərdir.

**Qrafik 1: 2019 və 2018-ci ilin fevral ayında 7 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**




Fevral ayında Rusiya, Türkiyə və Yaxın Şərqdən olan səyahətçilərin sayı 2018-ci ilə nisbətən müvafiq olaraq 4.5%, 8.4% və 7.7% azalıb. Eyni mənzərə yanvar-fevral aylarını əhatə edən dövr üçün də müşahidə olunur: həmin ölkələr üzrə azalma 2.6%, 10% və 7.3% təşkil edib. 2018-ci il boyunca müşahidə olunduğu kimi ən böyük azalma İran vətəndaşlarının payına düşüb: yanvar və fevral aylarında İrandan gələnlərin sayı 6.9 min və ya 24.6% azalaraq ümumən 21.2 min nəfər təşkil edib. Fevral ayında isə azalma daha da böyük olmaqla 26% təşkil edib.

**Qrafik 2: 2019 və 2018-ci ilin yanvar-fevral ayları ərzində 7 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2019-cu ilin Fevral ayında və 2019-cu ilin Yanvar-Fevral aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2018-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2019 | | 2018-ci il ilə müqayisədə fərq | |
|---|---|---|---|---|
| | Fevral | Yanvar-Fevral | Fevral | Yanvar-Fevral |
| Gürcüstan | 52 730 | 108 415 | 41 970 | 87 649 |
| Rusiya | 44 192 | 100 531 | 46 255 | 103 245 |
| Türkiyə | 22 322 | 43 803 | 24 381 | 48 657 |
| Yaxın Şərq | 15 167 | 35 542 | 16 429 | 38 328 |
| İran | 10 855 | 21 191 | 14 674 | 28 111 |
| Cənubi Asiya | 6 742 | 12 607 | 3 762 | 7 407 |
| Mərkəzi Asiya | 6 337 | 12 952 | 5 138 | 10 024 |
| Şərqi Avropa | 5 224 | 10 575 | 5 401 | 11 526 |
| Qərbi Avropa | 5 070 | 10 208 | 4 914 | 10 160 |
| Şimal-Şərqi Asiya | 1 348 | 2 583 | 970 | 1 978 |
| Amerika | 1 234 | 2 547 | 1 093 | 2 459 |
| Cənub-Şərqi Asiya | 574 | 1 145 | 480 | 1 025 |
| Afrika | 516 | 1 281 | 442 | 941 |
| Digər | 368 | 723 | 244 | 556 |
| **CƏMİ** | **172 679** | **364 103** | **166 153** | **352 066** |